

Vaqif Süleymanov

*Əməkdar Mədəniyyət işçisi*
*Məktəbin direktoru*

# Sumqayıt şəhər F.Əmirov adına 5 nömrəli Uşaq Musiqi Məktəbi

Sumqayıt şəhər Fikrət Əmirov adına 5 №-li Uşaq Musiqi Məktəbi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin müvafiq əmri əsasında 1991-ci ildən fəaliyyət göstərir.1994-cü ildə məktəbə görkəmli bəstəkar, SSRİ Xalq artisti, Sosiyalist Əməyi Qəhrəmanı Fikrət Əmirovun adı verilmişdir.

Musiqi məktəbi İsmət Qayıbov küçəsi, 62 №-li binanın birinci mərtəbəsində yerləşir.Ümumi sahəsi 1200 kvmdir. Məktəbdə 38 sinif, 4 xidmət otağı, kitabxana və 85 nəfərlik zal vardır. 137 alim və orta ixtisaslı pedeqoji heyət 435 şagirdə musiqinin incəliklərini,sirlərini tədris edirlər. Məktəbdə 5 şöbə faliyyət göstərir. Bunlar: Fortepiano şöbəsi (fortepiano və violin sinifləri), Xalq Çalğı alətləri şöbəsi (tar, kamança, qanun,-balabam, klarnet, saz, xanəndəlik sinifləri), Xalq Çalğı alətləri (qarmon) şöbəsi (qarmon və nağara sinifləri), nəzəriyyə şöbəsi və ümumi fənlər şöbəsi fəaliyyət göstərir.

Hazırda məktəbdə fəaliyyət göstərən müəllimlərin bir hissəsi məktəbin öz məzunlarıdır. Samir Hüseynov ,Rahil Mansurov, Vüqar Əliyev, Günel Hüseynova, Mətanət Quliyeva, Yaqub Muradov və digərləri hazırda bir zaman oxuduqları məktəbdə müəllim kimi fəliyyət göstərirlər.

F. Əmirov adına 5 №-li



Uşaq Musiqi Məkətbində hal -hazırda şagirdlərdən ibarət Xalq Çalğı Alətləri ansanblı, böyük xor kollektivi,"Pöhrə" aşıqlar ansanblı, Nağaraçalanlar ansanblı, "Buta" qızlar ansanblı,müəllimlərdən ibarət xalq çalğı alətləri ansanblı,-şagirdlərdən ibarət violin ansanblı faliyyət göstərir. Bu musiqi kollektivləri məktəbdaxili, şəhər və respublika çərçivəsində keçirilən tədbirlərdə uğurla çıxış edirlər.

Müəllimlərimiz Səidə Babayeva, Etibar İsgəndərov, Vüqar Kərimov,Tükəzban Əsədova, Zəminə Cavadova, Şirinbacı Muradova, Cəmilə Əliyeva, Zaur Abbasov və digərləri şagirdlərin seçdikləri ixtisaslar üzrə dərin biliklərə yiyələnmələrinə səylə çalışırlar. Tədris proqramına uyğun olaraq, məktəbdə açıq dərslər,-metodiki məşğələlər, akademik konsertlər, sinifdən-sinifə keçid və buraxılış imtahanları böyük uğurla keçirilir. Məzunlarımız Nicat Quliyev – Azərbaycan Milli Konservatoriyasına; Mahmud Qasımov-Bakı Xoreqrafiya Akademiyasına; Nuridə Zamanova,Həlimə Zamanova-Bakı Musiqi Kollecinə; Baxış Zamanov,Lətif Mustafayev, Sevda Abbasova,Əsmər İsgəndərova, Amin Quliyev, Aydənə və Güldanə Şirinova bacıları- Sumqayıt Musiqi Kollecinə qəbul olunmuşlar.








Məktəbin tədris işləri üzrə direktor müavini Lalə Mirzəyevanın rəhbərlik etdiyi "Buta" qızlar ansanblı 2009-cu ildə təşkil olunmuşdur. Ansambl əməkdar günlərdə, yubiley və şəhər tədbirlərində rəngarəng çıxışları ilə seçilir. Ansanblın repertuarında xalq və bəstəkar mahnıları,rənglər və rəqslər, ritmik muğamlar xüsusiilə gözəl səslənir. "Buta" qızlar ansanblının şəhərin içtimai həyatında fəal iştirakına görə, Sumqayıt İcra Hakimiyyəti və Mədəniyyət Nazirliyi tərəfindən müxtəlif hədiyyələr və fəxri fərmanlarla mükafatlandırılmışlar.

Məktəbin "Pöhrə"aşıqlar ansanbl Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni il şənliklərində, Novruz bayramında, Zəfər günündə xüsusi şövqlə çıxış etmiş və tamaşaçıların xüsusi rəğbətini qazanmışdır.

Sumqayıt Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə Aşıq Ələsgərin 200 illiyinə həsr olunmuş müsabiqəsində məktəbin şagirdi Bəyaz Alıyeva qran-pri, Nuray Dəmirzadə II yerə laiq görüldülər. Rusiya Fedirasiyasının Samara və Volqaqrad şəhərinlərində, Qazaxıstan Respublikasında onlayın qaydada keçirilən müsabiqələrdə məktəbin fortepiano, violin, tar siniflərinin şagirdləri müxtəlif sertifikatlar, fəxri yerlər, fərmanlar qazanmışlar.

Məktəbin şagird və müəllim kollektivi ələmətdar günlərə həsr olunmuş tədbirlərdə həvəslə çıxış edirlər. 44 günlük Vətən müharibəsində qazanılan qələbənin 1-ci ildönümü, Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni il bayramı, 8 mart Beynalxalq Qadınlar günü, Novruz bayramı, Böyük bəstəkar Səid Rüstəmovun 115 illiyinə həsr olunmuş konsertlərdə məktəbin musiqi kollektivləri uğurla çıxış etdilər.

Məktəbin direktoru, əməkdar mədəniyyət işçisi Vaqif Süleymanovun rəhbərlik etdiyi Sumqayıt Regional







Mədəniyyət İdarəsinin Xalq Çalğı Alətləri orkestri şəhərin və respublikanın ictimai həyatında fəal iştirak edirlər. Bu kollektiv dəfələrlə Sumqayıt, Abşeron, Bakı, Zəngilan, Qubadlı tamaşaçıları qarşısında çıxış etmişdir. Orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının xalq artisti, canlı əfsanə Alim Qasımov, xalq artisti Ağadadaş Ağayev,əməkdar artistlər Fərqanə Qasımova, Təyyar Bayramov, Almaz Orucova,Etiram Hüseynov, Sədəf Budaqova, Gülzar Babayeva, Aytən Məhərrəmova, Pərviz Qasımov və digərləri çıxış etmişlər.

Müzəffər Ali Baş Komandan, Azərbaycan Prezidenti Cənab İlham Əliyevin 2022-ci ili "Şuşa ili" elan etdikdən sonra 17 may tarixində məktəbin hesabat konserti keçirildi. Bu konsertdə məktəbin Böyük xoru, şagirdlərdən ibarət kvartetlər, xalq çalğı alətləri ansanblı,violin ansamblı,"Buta" qızlar ansanblı, ayrı-ayrı solistlər qələbəmizə, vətənimizə həsr olunan musiqi nömrələrini böyük həvəs və şövqlə ifa etdilır. Çıxışlar sürəkli alqışlarla qarşılandı.

Hazırda məktəb kollektivi Böyük Zəfər bayramına hazırlaşır. Böyük qələbəmizin 2-ci il dönümünə həsr olunmuş proqramda vətənə, xalqımıza, əsgər və zabitlərimizə həsr olunmuş mahnılar və əsərlər əksəriyyət təşkil edir.

Fikrət Əmirov adına 5№-li Uşaq Musiqi Məktəbinin müəllim kollektivi bundan sonra da əzimlə çalışırlar.Yetişməkdə olan gənc nəslin estetik zövqünü formalaşdırmaq, milli musiqi irsimizə yiyələnmək yolunda bilik və bacarıqlarını onlardan əsirgəməyəcəklər.